# ASƏF ZEYNALLI: ÜZEYİR BƏYİN LAYİQLİ DAVAMÇISI

Mehriban ƏHMƏDOVA

*"Millətin tərəqqisini arzu edən şəxs şübhəsizdir ki,yalnız bir arzu ilə iktifa etməyib, bu yolda iş də görməlidir. İş isə cürbəcürdür və bu işi bir adam da görə bilər, bir cəmiyyət dəxi görə bilər"*

Düşünürük ki, Ü.Hacıbəylinin bu gözəl sözləri və xüsusi qeyd etdiyi "bu işi bir adam da görə bilər" sözləri məhz gözəl bəstəkarımız, həmişə-yaşar Asəf Zeynallıya aiddir.

Bu il onun 111 yaşı tamam oldu (5 aprel 1909 - cu ildə doğulub). Qürur hissilə deyə bilərik ki, Asəf Zeynallı - Azərbaycanda professional təhsil almış ilk bəstəkar, bir neçə janrın əsasını ilk dəfə qoyan sənətkardır. O, dünyaya Dərbənd şəhərində göz açıb, uşaqlıq illərini burada keçirib, 1920-ci ildən isə Bakı həyatı başlayıb. 1923-cü ildə Azərbaycan musiqi texnikumuna qəbul olunub (truba sinfi üzrə). Gənc bəstəkarın elə ilk əsərində - "Truba üçün mahnı" məhz burada yaranıb. Bir müddətdən sonra o, nəfəsli alətlər şöbəsindən simli alətlər şöbəsinə keçib, böyük həvəslə violonçelə bağlanıb, həmin alət üçün əsərlər yazıb.

Dahi Ü.Hacıbəyli gənc Asəfin taleyində çox böyük rol oynayıb, elə onun məsləhəti ilə də o, 1926-cı ildə Konservatoriyaya daxil olur. Nəfəsli alətlər fakültəsində oxuyur. Lakin bir neçə ildən sonra bəstəkarlıq fakültə-sinə keçir və burada təhsilini davam etdirir. Bəstəkarlıq sinfində tanınmış, müəllimlər - professorlar V. V. Karaqiçev və L. P. Yablonko klassik musiqimizin qanunlarını yüksək professionallıqla gənc Asəfə öyrədirlər. Ü.Hacıbəylinin sinfində A. Zeynallı Azərbaycan xalq musiqisinin əsaslarına dərindən bələd olur və onun rəhbərliyilə bir neçə maraqlı əsər yaradır. Bu əsərlərdə bəstəkarın Azərbaycan xalq musiqisi ladlarına, janrlarına əsaslandığı aydınca duyulur.

Ü.Hacıbəylinin sinfində A. Zeynallı gözəl, yadda qalan və bu gündə tez-tez ifa olunan əsərlər yaradır: "Çahargah", "Durna" - fortepiano üçün, "Muğam üslubunda" - skripka və fortepiano üçün və bir çox başqa əsərlər.

Maraqlıdır ki, A. Zeynallı yaradıcılıq fəaliyyətinə hələ tələbə ikən Ba-kıdakı Satir-aqit teatrında başlamışdır. Onu bura həmin teatrın direktoru, görkəmli teatrşünas, dövlət xadimi və yazıçı Məmməd Sadıq Əfəndiyev dəvət etmişdi (M. S. Efendiev. "Çto doljen znat bakinskiy raboçiy o svoem tyurkskom raboçem teatre" Baku, 1931). A. Zeynallı bu zamanlar bir neçə tamaşaya musiqi yazır.

Konservatoriyada oxuyarkən IV kursdan başlaya-raq A. Zeynallı həmin sənət ocağında musiqi - nəzəri fənlərdən dərs deyir.

Onun böyük xidmətlərindən birini qeyd etmək yerinə düşər. Təxminən 1929-30-cu illərdə o, Leninqrad şəhərinə gedib Azərbaycan musiqisi haqqında mühazirələr oxuyur, müxtəlif konsertlər təşkil edir.

Leninqraddan A. Zeynallı Ü.Hacıbəyliyə məktub yazır: "Çox hörmətli Üzeyir bəy! Leninqradlılar türk musiqisi və bəstəkarlarının yaradıcılığına böyük maraq göstərirlər... Leninqradda olmağımdan faydalanaraq Leninqrad ictimaiyyətini musiqimizlə tanış etmək fikrindəyəm, buna görə də xahiş edirəm ən xarakterik əsərlərinizi - simfonik, vokal, instrumental və b. nümunələri poçtla göndərilməyinə lütfən etiraz etməyəsiniz... Buradakı filarmoniyanın əla orkestri və yaxşı ifaçıları var..."

Azərbaycan musiqisinə həsr olunmuş konsert Leninqrad şəhərində çox yüksək səviyyədə keçirilir. Həmin konsertdə Ü.Hacıbəylinin "Himni, M.Maqomaye-vin "Azərbaycan tarlalarında" simfonik əsəri, A. Zeynallının isə "Qara qaşlar", "Dağlar" vokal əsərləri səslənir.

Konservatoriyanı bitirdikdən sonra, A. Zeynallı simfonik orkestr üçün Süita yaradır ("Fraqmentlər"). Həmin əsəri musiqi ictimaiyyəti rəğbətlə qarşılayır.

A.Zeynallı fortepiano üçün musiqi sahəsinə yenilik gətirir. O, ilk dəfə Azərbaycan musiqisində proqramlı silsilə əsəri yaradır. Bu silsilə rəngarəng, olduqca ifadəli, milli musiqimizlə sıx bağlı olan pyeslərdən ibarətdir.



Hər bir pyes sanki "teatrlaşmış" səhnəciyə bənzəyir. ("Kuklaların yürüşü", "Uşaq və buz", "Oyun", "Rəqs", "Qoyunlar" və "Mübahisə") Fortepiano üçün yazılmış bu silsilə indi də şagirdlərin sevdiyi və həvəslə ifa etdiyi əsərlər sırasındadır.

Beləliklə, A. Zeynallı Azərbaycanda fortepiano üçün əsər silsilə-sinin əsasını, bünövrəsini qoydu və onun ardınca digər bəstəkarlar - Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Tofiq Quliyev, Elmira Nəzirova, Zakir Bağırov və digərləri onun ənənələrini davam etdirdilər.

A. Zeynallının fortepiano üçün yazılmış iki fuqasını da qeyd etməliyik. Bu əsərlər polifoniya sahəsində ilk təcrübə kimi çox maraqlı və ifadəli nümunələrdir. Həmin fuqalarda A. Zeynallı Azərbaycan xalq musiqisinin intonasiyalarından bacarıqla, incə bədii zövqlə faydalanıb. Dərs proqramına salınan bu əsərləri bizim müəllimlər tələbələrinə öyrətməyi özlərinə bu gün də borc bilirlər.

Bəstəkarın yaratdığı əsərlər daha çox vokal janındadır. Azərbaycanda sovet hakimiyyətinin onilliyi münasibəti ilə o, iki kütləvi mahnı yaradıb: "Qırmızı bayraq" və "On il".

Rəngarəng mahnı janrlarında istedadını sınayan görkəmli Azərbaycan bəstəkarlarının zəngin, çoxcəhətli yaradıcılığında lirik romansın da öz yeri vardır. Onların yaratdıqları lirik romanslarda xalqımızın tükənməz həyat eşqi, böyük vətənpərvərliyi və humanizmi öz təcəssümünü tapıb. Mu-siqi dili aydın, bədii-obrazlı, oynaq, rəvan olan bu əsərlər unudulmur, təravətini qoruyub saxlayır. Mənbəyini xalq musiqisindən almış bu lirik romanslardakı ahəngdarlıq, təbiilik xalq mahnılarından əxz olunub. Bəstəkarlarımız xalqımızın bu zəngin mənəvi sərvətinin toplanılmasında, lentə alınmasında böyük iş görüblər. 1927-ci ildə "Azərbaycan türk xalq mahnıları" məcmuəsinin nəşri bu sahədə ilk addım oldu. Məcmuəyə Üzeyir və Zülfüqar Hacıbəyovların, həmçinin Müslüm Maqomayevin toplayıb işlədikləri mahnılar daxil edilmişdi. Lirik romans və kütləvi mahnı janrının misilsiz tərəqqisində, geniş yayılmasında bu məcmuə xüsusi rol oynadı. Bildiyimiz kimi, Üzeyir Hacıbəylinin 1929-cu ildə yazdığı "Qaragöz" mahnısı ilə (mət-nin müəllifi də bəstəkarın özü idi) Azərbaycanda peşəkar lirik mahnı jan-rının əsası qoyulmuşdusa, ilk lirik romansları A. Zeynallı yaratmışdır. Onun 1928-31-ci illərdə yazdığı romanslar Azərbaycan vokal musiqi xəzinəsinin qiymətli inciləridir.

Müasir həyatın rəngarəng mövzularına ardıcıl meyl, musiqi dilindəki yenilik, klassik forma və janrlardan yaradıcı istifadə - A. Zeynallı üslubunu səciyyələndirən mühüm amillərdir.

A. Zeynallı romans-mahnı sənətinə insanın dərin psixoloji aləmini, onun fərdi duyğu və düşüncələrini gətirib. Lakin bu fərdi hisslər xalq ruhu ilə sıx bağlı idi.

İnsan şəxsiyyəti problemi, yeni insanın mənəvi aləmi 20-ci illərdə bəstəkarların çoxunun diqqət mərkəzində idi. Əgər Ü. Hacıbəyli və M. Maqomayev ümumi - tipik hadisələri daha qabarıq göstərirdilərsə, A. Zeynallı insanın daxili aləmini açmağa xüsusi fikir verirdi.

Bəstəkarın yaradıcılığında vətənpərvərlik motivləri çox güclüdür. "Ölkəm", "Sual" lirik romansları, vətəndaşlıq pafosu ilə dolu olan "Seyran", "Çadra" və "Sərhədçi" patriotik romansları bəstəkarın vokal sənətinə bəxş etdiyi gözəl musiqi əsərləridir. "Çadra", "Sərhədcilər", "Seyran" romanslarında sosial - mənəvi düşüncələr üstünlük təşkil edir.

Həmin əsərlərdə bəstəkarın xalq musiqisinə bağ-lılığı, novatorluq xüsusiyyətləri nəzərə çarpır.

A. Zeynallı "Sərhədçi" romans - balladasında respublikamızda ilk dəfə olaraq bas səsindən istifadə edib. Sonralar həmin səs üçün A. Sultanova "Xoşbəxt Azərbaycan", V. Adıgözəlov "Yeddi çinar" mahnılarını yazıb.

İstedadlı bəstəkar "Sərhədçi" romansını yaradarkən həm rus klassik romansı ənənələrinə, həm də Azərbaycan xalq mahnılarına əsaslanıb.

A. Zeynallının romansları musiqi formalarının rəngarəngliyi ilə də seçilir. Bunlar ahəng və intonasiya baxımından bütünlüklə Azərbaycan milli musiqisinin əks-sədalarıdır. Məsələn, "Sərhədçi" və "Çadra" romansları "Segah", "Seyran" və "Ölkəm" romansları "Şur", "Sual" romansı isə "Şüştər" üstündə bəstələnib.

A. Zeynallı öz romanslarında xalq çalğı alətlərinin səslənməsi üçün də geniş imkanlar yaradıb. Məsələn, "Çadra" romansında tipik zəngulələr tarla müşayiət edilir.

C.Cabbarlının sözlərinə yazılmış "Ölkəm" romansı A. Zeynallının vokal lirikasının parlaq nümunəsi sayıla bilər. Romansda təbiət gözəlliklərinin şairanə və valehedici tərənnümü, xalqa və Vətənə səmimi məhəbbət incə çalarlarla verilib. Romansın poetik və musiqili mətnində Vətənin ümumiləşdirilmiş bədii obrazı canlandırılıb.

Romans "Ölkəm!" nidası ilə başlayır və bitir. Giriş nidası başlanğıcdakı dörd təqtlə səsləşir, sonra şairanə lövhələr bir-birini əvəzləyərək, sonda ən yüksək və ekspressiv səslənən kulminasiya nöqtəsinə çatır. Ecazkar və füsünkar təbiət lövhələrini göz önünə gətirən "Ölkəm" romansının lirik ovqatı sanki sualla səsləşir (romans el sözlərinə yazılıb). Fortepiano başlanğıcında romansın obrazlı, təsirli məzmunu - xəfif kədər və ürək oxşayan lirika musiqi dililə məharətlə verilir. Ruhən "Dayan, çoban" xalq mahnısına yaxın olan bu romansın vokal melodiyalarına itirilmiş məhəbbətdən doğan kədər, hüzn hakimdir.

Bəstəkarın "Çadra" romansı (sözləri Q.Stroqano-vundur) ideya dərinliyi və o zamankı aktuallığına görə diqqəti cəlb edir. Romans Azərbaycanda qadın azadlığı məsələsinə həsr olunub. Burada A. Zeynallının aydın, canlı musiqi dilində Azərbaycan xalq musiqisilə rus klassik musiqisi ahəngdar surətdə qaynayıb-qarışıb. "Çadra" romansının yeniliyi məhz onun qeyri-adi musiqi formasında özünü aydın göstərir. Romans dörd müstəqil hissədən ibarətdir. Bunlar tematik cəhətdən təzadlılıq prinsipi üzərində qurulub. Lakin A. Zeynallı böyük ustalıqla bu hissələrin intonasiya bağlılığına nail olub. Ümumiyyətlə, XX əsrin vokal musiqisində bu romans ilk nümunədir ki, belə orijinal formada yazılıb. Sonralar 50-60-cı illərdə bir neçə kontrast bölmələrdən ibarət olan romanslar tez-tez yaranıb.







Rəsul Rzanın sözlərinə yazılmış 'Sərhədçi" romansı əsl novatorluğa parlaq misaldır. Bu romans-ballada janrında yazılıb. "Sərhədçi"də janr çərçivələrinin genişləndirilməsi, romansı sırf kamera dairəsindən kütləvi auditoriyaya çıxarmaq cəhdi yeni və qiymətlidir. A. Zeynallının romansları bu gün də ifaçılarımızın repertuarından düşmür.

İstedadlı bəstəkar, A. Zeynallı çox az yaşasa da (27 oktyabr 1932- ci ildə vəfat edib), olduqca mənalı, gərgin, yaradıcı ömür sürüb. Onun gözəl və ürəklərə yol tapan musiqisi xalqımızın ürəyində yaşayır və həmişə də yaşayacaqdır.